# HƏYAT VƏ YARADICILIĞI

Böyük poetik ilhama malik olan Məmməd Araz 1933-cü il oktyabr ayının 14-də Şahbuz rayonunun Nursu kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunda təhsil almışdır. Tələbəlik illərində İnstitutda yazıçı İsmayıl Şıxlının rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin məşğələlərində fəal iştirak etmişdir. Burada bəyənilən "Yanın, işıqlarım" şeiri 1952-ci ildə çap edilmişdir. 1954-cü ildə ali təhsilini başa vuran Məmməd Araz əmək fəaliyyətinə doğma kəndindəki orta məktəbdə müəllimliklə başlamış, daha sonra Bakıya köçmüşdür. Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Mətbuat İdarəsində müvəkkil işləmişdir. 1959–1961-ci illərdə Moskvada Yazıçılar İttifaqı nəzdindəki Ali Ədəbiyyat Kurslarının müdavimi olmuşdur. Sonra "Ulduz" jurnalının məsul katibi, "Ədəbiyyat və incəsənət" qəzetində, Azərbaycan Dövlət Nəşriyyatında baş redaktorun müavini olmuşdur.

1974-cü ildən ömrünün sonuna kimi "Azərbaycan Təbiəti" jurnalının baş redaktoru olmuşdur. Uzun müddət Azərbaycan Yazıçılar İttifaqının poeziya bölməsinə rəhbərlik etmişdir. Xidmətlərinə görə Azərbaycan Respublikasının İstiqlal ordeni (1995), bir medalla və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanları ilə təltif edilmişdir. Hacı Zeynalabdin Tağıyev adına milli mükafatın laureatıdır (1992). Onun adına "Məmməd Araz" mükafatı təsis olunmuşdur (1993-cü ildən).

2004-cü ilin 1 dekabrında Bakıda vəfat edib və Fəxri Xiyabanda dəfn olunub.

Məmməd Araz yaradıcılığının baş qəhrəmanı Azərbaycandır. Onun “Vətən mənə oğul desə”, “Məndən ötdü, qardaşıma dəydi”, “Mənim Naxçıvanım”, “Ata ocağı”, “Ana yurdum, hər daşına üz qoyum” şeirləri vətən mövzusunda ən yaxşı əsərlər kimi dillər əzbəridir. Poeziyamızda Azərbaycan mövzusunda çox yazılıb. Azərbaycana çoxlu şeirlər ithaf olunub. Amma Məmməd Arazın “Azərbaycan – dünyam mənim” şeirinin bənzəri yaradılmayıb. Bu şeirin bütün intonasiyası şair qəlbinin ağrılarından, fəal vətəndaş narahatlığından keçir. Şeir yaradıcılığında olduğu kimi, poemaları ilə də Məmməd Araz təkrarsızdır. Onun “Üç oğul anası”, “Araz axır”, “Mən də insan oldum”, “Paslı qılınc”, “Əsgər qəbri”, “Atamın kitabı” poemaları hər şeydən əvvəl insan mənəviyyatının mürəkkəbliyi, tarix və müasirlik, milli tale və tarixi yaddaşın bərpası kimi fundamental məsələlərə həsr olunub.

Ümummilli lider Heydər Əliyev Xalq şairi, poeziyamızın istedadlı nümayəndəsi Məmməd Araz yaradıcılığına və şəxsiyyətinə daim yüksək qiymət vermişdir. Təsadüfi deyil ki, Məmməd Araz ilk yaradıcılığa ötən əsrin 50-ci illərindən başlasa da, onun təkrarsız istedadı 1970-ci illərdə, Ulu Öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə parlamışdır. Məmməd Araza böyük şöhrət gətirən “Atamın kitabı”, “Həyatın və sözün rəngləri”, “Oxucuya məktub”, “Qanadlı qayalar”, “Aylarım, illərim” kitabları məhz bu illərdə çap olunub, əsərləri xarici dillərə tərcümə edilərək geniş oxucu kütləsinin məhsuluna çevrilib. 1975-ci ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunan böyük şairə 1978-ci ildə “Əməkdar mədəniyyət işçisi” fəxri adı verilib, 1995-ci ildə isə

ümummilli lider Heydər Əliyev Xalq şairi Məmməd Arazı “İstiqlal” ordeni ilə təltif edib. Ulu Öndər Məmməd Araz sənətini yüksək dəyərləndirərək deyib: “Bu gün bir daha Məmməd Arazın Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri gördük, eşitdik və bunların xalqımız üçün nə qədər faydalı olduğunu bir daha bildik, bir daha dərk etdik ki, Azərbaycan xalqının həyatında Məmməd Arazın yaradıcılığının nə qədər böyük əhəmiyyəti var”. Ümidvaram ki, Azərbaycan xalqı daim müstəqilliyini qoruyub saxlayacaq və müstəqil Azərbaycanın ilk “İstiqlal” ordeninə layiq görülmüş şəxsiyyətlərdən biri kimi Məmməd Araz, Azərbaycan xalqının tarixində indi olduğu kimi, gələcəkdə də öz yerini tutacaqdır”.

## *Mükafatları*

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı — 1975

"Azərbaycan SSR əməkdar mədəniyyət işçisi" fəxri adı — 1978

Azərbaycan SSR Fəxri fərmanı — 1982

"Azərbaycan SSR əməkdar incəsənət xadimi" fəxri adı — 1984

Azərbaycan SSR Dövlət mükafatı — 1988 ("Azərbaycan" və "Ulduz" jurnallarında çap olunmuş şerlər silsiləsinə görə)

"Azərbaycan Respublikasının xalq şairi" fəxri adı — 7 dekabr 1991

"Azərbaycan Respublikasının əməkdar təbiəti mühafizə işçisi" fəxri adı — 4 iyun 1992

"İstiqlal" ordeni — 15 aprel 1995

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü — 11 iyun 2002

## *Əsərləri*

Sevgi nəğməsi. Bakı: Azərnəşr, 1959, 68 səh.

Üç oğul atası. Bakı: Uşaqgəncnəşr, 1961, 63 səh.

Araz axır. Bakı: Azərnəşr, 1964, 76 səh.

Mən səni taparam. Bakı: Azərnəşr, 1963, 59 səh.

Anamdan yadigar nəğmələr. Bakı: Azərnəşr, 1966, 152 səh.

Ömür karvanı. Bakı: Azərnəşr, 1967, 136 səh.

İllərdən bəri. Bakı: Gənclik, 1969, 114 səh.

Qanadlı qayalar. Bakı: Azərnəşr, 1973, 190 səh.

Atamın kitabı. Bakı: Gənclik, 1974, 168 səh.

Həyatın və sözün rəngləri. Bakı: Gənclik, 1975, 135 səh.

Oxucuya məktub. Bakı: Gənclik, 1978, 234 səh.

Aylarım, illərim. Bakı: Yazıçı, 1979, 224 səh.

Dünya sənin, dünya mənim. Bakı: Yazıçı, 1983, 310 səh.

Seçilmiş əsərləri (bircildlik). Bakı: Azərnəşr, 1986

Dünya düzəlmir. Bakı: "Azərbaycan" nəşriyyatı, 1992, 81 səh.

Daş harayı. Bakı: Yazıçı, 1993, 254 səh.

Qayalara yazılan səs. Bakı: Azərnəşr, 1994

Yol ayrıcında söhbət. Bakı: "Azərbaycan" nəşriyyatı, 1997, 318 səh.
Sənətdə son mənzil olmur. Bakı: "Adiloğlu" nəşriyyatı, 2001, 440 səh.
Ağlayan qayalar. Bakı: "Araz" nəşriyyatı, 2002, 144 səh.
Vətən deyin. Bakı: "Adiloğlu" nəşriyyatı, 2003, 149 səh.
Əsgər andı. Bakı: "Araz" nəşriyyatı, 2003, 98 səh.
Seçilmiş əsərləri (dörd cilddə). I c. Bakı: "Ozan" nəşriyyatı, 2003, 337 səh.
Seçilmiş əsərləri (dörd cilddə). II c. Bakı: "Ozan nəşriyyatı, 2003, 360 səh.
Seçilmiş əsərləri (dörd cilddə), III c. Bakı: "Ozan" nəşriyyatı, 2003, 376 səh.
Seçilmiş əsərləri (dörd cilddə), IV c. Bakı: "Ozan" nəşriyyatı, 2003, 365 səh.

## *Tərcümələri*
## *(ruscadan)*

S. V. Mixalkov. Foma. Bakı: Azərnəşr, 1964, 16 səh.
G. Ağacanyan. Narahat ürək. Bakı: Gənclik, 1974, 83 səh.
M. Svetlov. Şeirlər. Bakı: Azərnəşr, 1975, 204 səh.
N. A. Nekrasov. Rus qadınları. Bakı: Yazıçı, 1983, 124 səh.
Ocaq başında (dünya şairlərinin şeirləri). Bakı: Yazıçı, 1988, 241 səh.